TEXNİKİ MƏLUMAT VƏRƏQƏSİ

ASFAMIX® 270 AN

Məhsul haqqında

ASFAMİX® 270 AN - Bitumlu qarışıqlar üçün soyulmaya qarşı müqaviməti artıran , bitum və aqreqat arasında cazibə qüvvəsi gücləndirən , poliamin kimyəvi əlavəli asfalt qatqısıdır.

Məhsul kodu: 207.90016

İstifadə sahələri

- Bitumlu isti qatışıqlarda
- Aşınan qatlarda
- Səthi üzlüklərdə

Üstünlükləri

- Xüsusi olaraq isti qarışıq asfaltlar üçün istehsal edilmişdir.
- Aqreqaların hidrofilik quruluşunu hidrofobik quruluşa çevirir.
- Geniş çeşiddə aqreqa növləri üçün effektivdir.
- Asfaltın mexaniki dayanıqlığını qoruyub saxlamasını təmin edir.
- Fiziki xüsusiyyətlərini dəyişmədən bituma uyğunlaşır.
- Zəif qoxusu sayəsində rahat iş mühiti təmin edir.
- Suda həll olunmur, karbohidrogendə həll olunur.

Texniki göstəriciləri

Rəngi	Tünd sarı-qəhvəyi özlü maye
Sıxlığı (ISO 758)	0.92 – 0.96 kq/litr
PH dəyəri (ISO 4316)	> 7
Yanma nöqtəsi	> 170 °C
Özlülük	12000-1400 mPa.s

Yuxarıdakı göstəricilər +20°C-də və 50% nisbi rütubət üçün verilmişdir.

İstifadə miqdarı

ASFAMİX® 270 AN-Tətbiqdə istifadə olunacaq aqreqat və bitumun tərkibindən asılı olaraq; Çəki ilə bitumun 0,1 - 0,5% -i diapazondadır.

TEXNİKİ MƏLUMAT VƏRƏQƏSİ

ASFAMIX® 270 AN

Saxlama şərtləri

+5 ilə +35°C arası temperaturda, birbaşa günəş şüalarının təsirindən qorunaraq saxlanılmalıdır. Məhsul donduğu halda, onu birbaşa isitmədən, otaq temperaturunda donu açılmalı və homogen hala gəlincəyə qədər qarışdırılmalıdır.

Saxlama müddəti

Düzgün anbarlama şərtlərində, istehsal tarixindən etibarən 12 aydır. Açılmış qabların qapaqları təkrar kip bağlanaraq, son istifadə müddətinə qədər istifadə oluna bilər.

Təhlükəsizlik tədbirləri

Tətbiq əsnasında iş və işçi sağlamlığı şərtlərinə uyğun iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Materialın qıcıqlandırıcı təsirlərinə görə, dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tədbiq olunan sahələrə qida məhsulları buraxılmamalıdır. Uşaqların əllərinin çatmayacağı yerlərdə anbarlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

Cavabdehlik

Şirkətimiz sadəcə məhsulun keyfiyyətinə cavabdehdir. Məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflər xaricindəki və/və ya xətalı istifadələrdən şirkətimiz cavabdehlik daşımır. Daha ətraflı məlumat üçün məhsul kitabçası istəməyiniz və ya şirkətimizin cavabdehləri ilə əlaqə saxlamağınız xahiş olunur.

KARTAŞ LTD MMC

Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi qəsəbəsi 7

www.mrfix.az

Tel: +994 12 347 00 10, +994 12 347 10 10